**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun Gənc alim və mütəxəssislərin**
**4-cü birgə "Mənim ilk qrantım"müsabiqəsinin**
**(EİF/GAM-4-BGM-GİN-2017-3(29)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

# YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycan və türkdilli ədəbiyyatda repressiyanın bədii-estetik dərki**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Həsənov Mehman Ağasəlim oğlu**
Qrantın məbləği: **25 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-4-BGM-GİN-2017-3(29)-19/14/5-M-06**
Müqavilənin imzalanma tarixi: **02 mart 2018-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2018-ci il – 01 aprel 2019-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|
| | 1.Mehman Həsənov. İl ərzində repressiyanın baş vermə səbəbləri, həmin dövrün tarixi şəraiti və türk xalqlarının ədəbi-mədəni mühitində bur prosesə münasibət kompleks şəkildə öyrənilmişdir. Məsələyə kompleks yanaşdıqda baş verən qanlı cinayətin köklərinin daha qədimə, Çar imperiyası dövrünə gedib çıxdığı aydın olur. XIX əsr boyu geniş işğal siyasəti nəticəsində Mərkəzi və Orta Asiya, Qafqazda yaşayan türk xalqları Çar imperiyasının tabeliyinə keçdi. Mərkəzi aparatla yeri rəhbərlərin yazışmalarında (General Kuropatkinin yazdığı məktublarda) əsas istiqamət müsəlman və türk xalqlarında elmdən, təhsildən bacardıqca uzaq tutmaqla müstəmləkəçi rəiyyət formalaşdırmaqdan ibarət olduğu meydana çıxır. Çar imperiyasının daha çox təzyiq, sürgün və həbslərlə yürütdüyü müstəmləkəçiliyi daha sonralar bolşeviklər daha qəddar şəkildə, kütləvi şəkildə fiziki məhvetmə üsulu ilə həyata keçirmiş oldular. Hələ 1917-ci ildə bolşeviklər qalib gələndə görkəmli özbək şairi, yazıçısı A.Fitrət "Yeni bəla gəldi – bolşevik bəlası" adlı məqalə yazmışdır. Və yaxud M.Ə.Rəsulzadənin çox sonralar yazdığı "Stalinlə ixtilal xatirələri" adlı silsilə məqalələrində Stalinin kütləvi terrorun zərurəti ilə bağlı bildirdiyi fikirlər imperiyanın mahiyyətini, repressiyanın baş vermə səbəblərini aydınlaşdıran mühüm mənbələrdir. İl |

| | |
|---|---|
| | ərzində Azərbaycan və türk xalqlarının görkəmli mütəfəkkirlərinin yazdıqları əsas alınmaqla həmin dövrün tarixi şəraiti, repressiyanın genezisi tədqiqata cəlb olunmuşdur. Eyni zamanda repressiyanın Azərbaycan mühacirət ədəbi-bədii fikrində əksi məsələləri araşdırmaya cəlb edilmişdir. Belə ki, Ceyhun Hacıbəylinin bədii və publisistik irsi əsasında Azərbaycan mühacirət ədəbiyyatının repressiyaya münasibəti tədqiq edilmişdir.<br>2. Maya Axundova. Repressiyanın ümumi resepti bütün imperiya xalqları üçün eyni olmasına rəğmən hər bir xalqın həyatında, taleyində fərqli şəkildə təzahür etmiş, xalqın ictimai-siyasi eləcə də ədəbi-mədəni vəziyyətinə uyğun şəkildə nəticələr vermişdir. İl ərzində qazax, qırğız, türkmən, özbək, tatar, başqırd və digər azsaylı türk xalqlarında 20-30-cu illərdəki ictimai-siyasi vəziyyət, repressiya olunmuş ədiblər və səbəbləri araşdırmaya cəlb edilmişdir.<br>3. Pənah Hacıyev. Repressiya Azərbaycanda geniş dalğa kimi həyata keçirilmiş, Azərbaycanın görkəmli yazıçıları, şairləri bu dalğanın qurbanına çevrilmişlər. Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu olan xalqa 30-cu illərdə amansız divan tutuldu. Əsas məqsəd heç şübhəsiz ki, xalqın intellektual bazasını məhv etmək, qorxu yolu ilə müstəmləkəçiliyi gücləndirməkdən ibarət olmuşdur. Cari rübdə XIX əsrin 50-ci illərindən – Mirzə Fətəli Axundzadə ilə başlamış milli məfkurə hərəkatı və bu hərəkatın nəticəsi kimi meydana çıxan AXC, 1920-ci ilin aprel ayının 28-də işğal yolu ilə Azərbaycanın qəsb edilməsi və 30-cu illərin mühiti tədqiq edilmişdir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *100%* |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | “Azərbaycan və türkdilli ədəbiyyatda repressiyanın bədii-estetik dərki” layihəsi üzrə il ərzində aşağıdakı elmi nəticələr əldə edilmişdir:<br>- Repressiya zaman və məkan baxımından daha geniş kontekstdə araşdırmaya cəlb edilmişdir.<br>- Burada repressiya hər hansı xalqın taleyinin fonunda deyil, daha geniş miqyasda, mərkəzdən idarə olunan dalğa kimi öyrənilmişdir.<br>- Eləcə də zaman baxımından təkcə SSRİ-nin qurulması illəri deyil, Çar imperiyası vaxtından təməli atılan bir dalğanın, müstəmləkəçi siyasətin və bu siyasətin izlərinin türk xalqlarının taleyində necə əks olunması, prosesə qarşı hansı adekvat addımların atılması öyrənilmişdir.<br>- Ceyhun Hacıbəylinin mühacirətdə yazdığı “SSRİ-də ziyalılar” (fransız dilindən tərcümə edəni Mirzəbala Əmrahov), Əhməd Cavad faciəsi məqalələrində, “Stalinin öpüşü və staxanovçu Fatimə” (fransız dilindən tərcümə edəni Mirzəbala Əmrahov) və “Nejdanovun işi” (fransız dilindən tərcümə edəni Mirzəbala Əmrahov) hekayə və sinopsislərində repressiya mövzusunun inikası tədqiq edilmişdir. Xatrladaq ki, Ceyhun Hacıbəylinin qeyd olunan əsərləri yeni tərcümə olunmuş və AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mühacirət ədəbiyyatı kitabxanası seriyasında “Ceyun Hacıbəyli – Seçilmiş əsərləri” cildində nəşr olunmuşdur.<br>- Türk xalqlarında ayrı-ayrı baş verən repressiya ilə bağlı tədquqatlar aparılmış, nəticələr ümumiləşdirilmişdir. Layihədə türk xalqlarının taleyindən qırmızı xətlə keçən məlum hadisə kompleks şəkildə, bir-birilə müqayisə edilərək öyrənilmişdir.<br>- Qazax və qırğız ziyalıları və ədibləri keçmiş milli partiya olan Alaş Ordanın üzvləri olmaq və gizli fəaliyyət göstərərək SSRİ-ni parçalamaqda  ittiham olunmuşlar.<br>- Qırğızıstanda əvvəllər daş karxanası kimi istifadə olunan yerin kütləvi məzarlığa çevrilməsi və bu |

həqiqətin çox sonralar – 1991-ci ildə hansı şəkildə üzə çıxması qırğız mənbələri əsasında araşdırılmışdır;

- Tölögön Kasımbekin “Sınan qılınc”, “Yenidən doğuluş” tarixi romanlarında repressiya gerçəyi araşdırılmışdır;
- Kökön Satkanovun “Mərhumların səsi” əsərində tarixi gerçəklik və repressiyanın inikası məsələləri öyrənilmişdir;
- Tatar və başqırd ədiblərinə qarşı həyata keçirilən repressiya və onun ədəbiyyatda əksi tədqiq olunmuşdur;
- Repressiyanın başqırd və tatar xalqlarının həyatına təsiri, görkəmli başqırd və tatar ədiblərinin bu faciənin hansı səbəblərlə qurbanı olması öyrənilmişdir;
- İbrahim Salahovun repressiyadan bəhs edən “Kolıma hekayələri” avtobioqrfik-tarixi romanı tədqiqata cəlb edilmişdir.
- Azərbaycanda repressiya ilə bağlı aparılan tədqiqatlar əsasında ümumiləşdirmələr aparılmış, faciəvi prosesin digər türk xalqları ilə müqayisəli təhlili aparılmışdır.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

1. Mehman Həsənov. Ceyhun Hacıbəylinin bədii və mətbu irsində repressiya mövzusu. IV Beynəlxalq Türk Mədəni Coğrafiyasında Təhsil və Sosial Elmlər Konfransı. Bakı 27-30 iyun, 2018-ci il
2. Maya Axundova. “Tatar ədəbiyyatında repressiya mövzusu: İbrahim Salahovun “Kolıma məhkumları” əsəri əsasında”. AMEA “Xəbərlər” jurnalına (Humanitar elmlər seriyası).
3. Maya Axundova. Repressiya qurbanı olmuş tatar və başqırd ədibləri
4. Pənah Hacıyev. Repressiya gerçəyi Azərbaycan ədəbi fikrində. “Azərbaycan ədəbiyyatşünaslığı” jurnalı (AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri). (Çapa təqdim edilmişdir).
5. Mehman Həsənov. Repressiyanın genezisi və baş vermə səbəbləri. “Müqayisəli ədəbiyyatşünaslıq” jurnalı, 2019, №1
6. Maya Axundova. Qazax və qırğız xalqlarının repressiyasına ümumi baxış. “Müqayisəli ədəbiyyatşünaslıq” jurnalı, 2019, №1
7. Maya Axundova. Özbək və türkmən ədiblərinə qarşı repressiya siyasəti. (çapa təqdim edilmişdir.)
8. Мехман Гасанлы. Отражение сущности репрессии в повести «Белое облако Чингисхана».
9. Mehman Həsənli. Çingiz Aytmatovun “Çingiz xanın ağ buludu” əsərində repressiyanın bədii-estetik dərki. AMEA “Filologiya və sənətşünaslıq” jurnalı, №2,s. 175-178
10. Mehman Həsənli, Pənah Hacıyev. Repressiyanın Azərbaycan bədii nəsrində inikası (Yusif Səmədoğlunun “Qətl günü” romanı əsasında) (Çapa təqdim edilib)
11. Maya Həsənli (Axundova). “Qazax və qırğız xalqlarının repressiyasına ümumi baxış” AMEA “Müqayisəli ədəbiyyatşünaslıq” jurnalı,№ 13, s. 173-178

| | |
|---|---|
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)* |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | - Layihə rəhbəri fil.f.d. Mehman Həsənov 29 iyun 2018-ci ildə Bakıda keçirilən Beynəlxalq Türk Mədəni Coğrafiyasında Təhsil və Sosial Elmlər Konfransında “Ceyhun Hacıbəylinin bədii və mətbu irsində repressiya mövzusu” adlı məruzə ilə çıxış etmişdir.<br>- Mehman Həsənov Çingiz Aytmatovun 90 illik yubileyi çərçivəsində Qırğızıstanda elmi ezamiyyətdə olmuş və səfər zamanı “Çingiz Aytmatov və repressiya” mövzusunda məruzə ilə çıxış etmişdir. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)* |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | Azərbaycanda reprsssiya mövzusu ilə bağlı tədqiqat aparan fil.e.d., prof.Bədirxan Əhmədov, fil.e.d., prof. Tahirə Məmməd, türk xalqları istiqməti üzrə fil.f.d.İsmixan Osmanlı, fil.e.d., prof. Nizami Məmmədov və başqaları ilə fikir mübadiləsi aparılmış, çap olunan elmi materiallar toplanmışdır. |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | Layihənin mövzusu üzrə Qırğızıstandan professor Osmanakun İbrahimov, Jumaqul Saadanbekov, Layli Ukubayeva, Başqırıdstandan Ayqiz Baymuhəmmədov, Özbəkistandan professor Səadət Məhəmmədova ilə yazışmalar aparılmış, materiallar toplanmışdır |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | Layihə rəhbəri fil.f.d Mehman Həsənov Azərbaycan Dövlət Televiziyasında, eləcədə də dövrü mətbuatda çıxışları zamanı Azərbaycanda gənc alimlərə qayğıdan, Elmin İnkişaf Fondunun Qrant layihəsindən bəhs etmişdir. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

__________________
*(imza)*
" __" ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Həsənov Mehman Ağasəlim oğlu**

_________________
*(imza)*
" __" ________ 201_-ci il